# MÖVLUD TEYMUR - 70

## Dağda baharın sənətkar ömrü



## "Sözmün güvənci..."

Ədəbiyyatımızda bir Mövlud Teymur da var. Xüsusilə poeziyamızda Səməd Vurğun ənənəsinin, Hüseyn Arif ruhunun, qismən də Bəxtiyar Vahabzadə düşüncəsinin daşıyıcısı... şair Mövlud Teymur.

Poeziyaya özünün təbiətini, mənəvi mühitini, insana, vətənə sevgisini poetik yaradıcılığı ilə gətirən Mövlud Teymur mövzu rəngarəngliyinə görə fərqlənən bir şairdir. Əgər Mövlud Teymur "Sözümün güvənci həqiqətdir" desə, buna oxucu şəkk eləməz. Çünki Mövlud Teymurun bütün poetik yaradıcılığı gördüyü, duyduğu həqiqətlərin əks-sədasıdır.

Şairlərin inadkarlığı, dünya həqiqətlərinə inamı onların yaradıcılığında meyara çevriləndə yaşarlılıq kəsb edir. Şair döyüşçüdür, silahı sözdür, məqsədi, məramı dünya nizamı uğrunda savaşdır. Dövrümüzün tanınmış sənətkarı Mövlud Teymur bir çox müasirlərimizdən fərqli olaraq ad-san davası eləmir. Şöhrət savaşı aparmır. Amma onun bütün yaradıcılığında savaş motivi var. O istəyir ki, başqaları da Babadağı onun sevdiyi qədər sevsin. Mövlud Teymur istəyir ki, hər kəs vətən deyəndə Göyçay çinarları kimi qürurlu olsun. Təsadüfi deyil ki, Mövlud Teymurun poeziyasında dağ qüruru, ümman genişliyi, çinar möhtəşəmliyi müntəzəm olaraq əsas obraz kimi görünür. Çoxlu sayda kitabları ilə özünün nəyə qadir olduğunu istedadının geniş imkanlarını göstərə bilib.

Həyatın hər üzünü görmüş, ən başlıcası, həyatdan aldığı zərbələrdən sarsılmamış, təqiblərə, təzyiqlərə mərdanəliklə sinə gərmiş Mövlud Teymur Azərbaycan poeziyasının söz yükünü şərəflə daşımağın əzabkeş şairidir.

Ötən il onun 70 illik yubileyi oldu. Daim əlində olan qələmi yeni yaradıcılıq örnəkləri ilə onun ömür kitabını özünün səssizlik hücrəsində qeyd etdi. Yaşamağın, yaratmağın missiyası çox müqəddəsdir və bunu Mövlud Teymur yaxşı bilir. Elə ona görə də nə həyatdan aldığı mənəvi təzyiqlər, nə də hər hansı bir sıxıntı onu yolundan döndərə bilməyib.

Görkəmli poeziya tədqiqatçısı Vaqif Yusiflinin belə bir sözü var: Yaradıcı adamın yazdığı onun mənəvi pasportudur. Şair olanı yaradıcılığı göstərir. Zənnimcə, bu fikrin davamı olaraq qeyd edə bilərik ki, Mövlud Teymurun poetik yaradıcılığı onun şairliyinin təkzibolunmaz təsdiqidir. "Mövlud Teymur şairdir" deyəndə biz heç bir sıxıntı keçirmirik. Beləcə, şair Mövlud Teymur 70-lə xudahafizləşib 80-ə doğru yol başlayıb.

Səksənində görüşərik, Mövlud Teymur.

**Əli Rza**

*24.01.2022*

Kredo .- 2022.- 26 yanvar.- S.1.